**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Cəzaların icrasına nəzarət baş idarəsi haqqında**
**Ə S A S N A M Ə**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Cəzaların icrasına nəzarət baş idarəsi (bundan sonra - Baş idarə) Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Aparatının müstəqil struktur qurumudur.

1.2. Baş idarə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsini, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"ni, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını, həmçinin Azərbaycan Respublikası Ədliyyə Nazirliyi (bundan sonra - Nazirlik) kollegiyasının qərarlarını, Nazirlik üzrə əmr və sərəncamları, habelə bu Əsasnaməni rəhbər tutur.

1.3. Baş idarə fəaliyyətini Nazirliyin Aparatının struktur qurumları, strukturuna daxil olan qurumları (bundan sonra - struktur qurumlar), dövlət və yerli özünüidarə orqanları, habelə digər qurumlarla əlaqəli həyata keçirir.

1.4. Baş idarə müvafiq ştamplara malikdir.

## 2. Baş idarənin fəaliyyət istiqamətləri

2.1. Baş idarənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. penitensiar müəssisələrin cəzaların icrası ilə bağlı fəaliyyətinə nəzarət edir;

2.1.2. məhkumların cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzaların icrasına nəzarət edir;

2.1.3. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Baş idarənin vəzifələri

3.1. Baş idarə bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. cəzaları icra edən müəssisə və orqanların fəaliyyətinə, cəzaların icrası və həbsdə saxlama zamanı normativ hüquqi aktların tələblərinə, o cümlədən cəzaların çəkilməsi şərtlərinə əməl olunmasına nəzarət etmək;

3.1.2. azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaların icrasına, azadlıqdan məhrum etmə, ömürlük azadlıqdan məhrum etmə və azadlığın məhdudlaşdırılması növündə cəzalara məhkum olunmuş, habelə barələrində həbs qətimkan tədbiri seçilmiş şəxslərin müəyyən edilmiş qaydada saxlanması, mühafizəsi və müşayiət olunması işinə nəzarət etmək;

3.1.3. şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində nəzarətin təşkili vəziyyətini öyrənmək;

3.1.4 cəzanı icra edən müəssisə və orqanlar tərəfindən məhkumların hüquq və azadlıqlarının qorunması, onlara islah edilmə vasitələrinin tətbiqi vəziyyətini öyrənmək;

3.1.5. əfv və amnistiya aktlarının vaxtında və düzgün icra olunmasına nəzarət etmək;

3.1.6. penitensiar müəssisələrdə işgəncələrin və pis rəftarın qarşısının alınması məqsədilə keçirilən tədbirlərdə iştirak etmək;

3.1.7. məhkumlar və təqsirləndirilən şəxslər haqqında statistik məlumatları toplamaq, ümumiləşdirmək və təhlil etmək;

3.1.8. cəzaları icra edən müəssisə və orqanlarda, istintaq təcridxanalarında baş vermiş hadisələrlə bağlı xüsusi məlumatları ümumiləşdirmək və təhlil etmək;

3.1.9. aidiyyəti dövlət proqramlarının və inkişaf konsepsiyalarının yerinə yetirilməsi üçün tədbirlər görmək;

3.1.10. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini səlahiyyətləri daxilində təmin etmək;

3.1.11. fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin icrası ilə bağlı Azərbaycan Respublikası tərəfindən beynəlxalq təşkilatlara təqdim olunan dövrü hesabatların hazırlanmasında iştirak etmək;

3.1.12. Azərbaycan Respublikasının cəzaların icrası sahəsində beynəlxalq öhdəliklərindən irəli gələn vəzifələrini, üzv olduğu beynəlxalq, digər təşkilatların cəzaların icrası məsələlərinə dair tövsiyələrini təhlil etmək və müvafiq təkliflər hazırlamaq;

3.1.13. Baş idarənin fəaliyyət istiqamətləri üzrə, habelə cəzaların icrası sahəsində mütərəqqi beynəlxalq təcrübəni öyrənmək, onun tətbiqi ilə bağlı müvafiq təkliflər vermək;

3.1.14. fəaliyyət istiqamətlərinə aid olan qanunvericilik aktlarının layihələrinə rəy verilməsində iştirak etmək, müvafiq normativ hüquqi aktların layihələrini hazırlamaq;

3.1.15. Baş idarənin fəaliyyətini tənzimləyən normativ hüquqi aktların yeni qəbul olunmuş qanunvericiliyə uyğunlaşdırılması barədə təkliflərin hazırlanmasında iştirak etmək;

3.1.16. vətəndaşların, penitensiar müəssisələrdə saxlanılan şəxslərin qəbulunu həyata keçirmək;

3.1.17. Baş idarənin səlahiyyətlərinə aid məsələlər üzrə müraciətlərə, o cümlədən cəzaları icra edən müəssisə və orqanların işçilərinin hərəkətlərindən (hərəkətsizliyindən) verilmiş şikayətlərə baxmaq;

3.1.18. hüquqi maarifləndirmə işində iştirak etmək;

3.1.19. fəaliyyəti ilə bağlı ictimai maraq kəsb edən məlumatları media, habelə Nazirliyin mətbu nəşrləri və internet səhifəsi vasitəsilə yaymaq;

3.1.20. fəaliyyət istiqamətləri üzrə və Nazirliyin rəhbərliyinin tapşırıqları əsasında digər vəzifələri yerinə yetirmək.

## 4. Baş idarənin hüquqları

4.1. Baş idarə öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. cəzaları icra edən müəssisə və orqanlarda səlahiyyətlərinə aid məsələlər üzrə yoxlamalar aparmaq, qanun pozuntuları aşkar edildikdə, tədbirlər görülməsi üçün Nazirliyin rəhbərliyinə təkliflər vermək;

4.1.2. fəaliyyət istiqamətləri üzrə cəzaları icra edən müəssisə və orqanlarda nöqsanları və neqativ halları doğuran səbəblərin aradan qaldırılması məqsədilə

xidməti yoxlama, təftiş və monitorinqlər aparmaq, habelə bu məqsədlə müxtəlif monitorinq qrupları yaratmaq;

4.1.3. cəzaları icra edən müəssisə və orqanlarda korrupsiya risklərinin, hüquqpozmaların və buna şərait yaradan halların müəyyən edilməsi, təhlili və qarşısının alınması üzrə tədbirlər görmək və müvafiq təkliflər vermək;

4.1.4. monitorinqlərin, xidməti yoxlama və araşdırmaların nəticələri üzrə işçilər barəsində həvəsləndirmə və ya intizam tənbehi tədbirlərinin tətbiq edilməsinə dair təkliflər vermək;

4.1.5. dövlət orqanlarına, dövlət və qeyri-dövlət təşkilatlarına, Nazirliyin strukturuna daxil olan qurumlara müraciət etmək, onlara sorğular vermək və məlumatlar almaq;

4.1.6. vəzifələrini yerinə yetirərkən, əvvəlcədən xəbərdarlıq etmədən, maneəsiz cəzaları icra edən müəssisə və orqanlara, habelə məhkumların və həbs edilmiş şəxslərin mühafizəsini və müşayiətini həyata keçirən hərbi qurumlara daxil olmaq, həbs edilmiş şəxslər və məhkumlarla görüşüb təkbətək söhbət etmək və saxlanılmaları ilə bağlı sənədlərlə tanış olmaq;

4.1.7. zərurət yarandıqda araşdırılan məsələlərlə bağlı cəzaları icra edən müəssisə və orqanlar, o cümlədən onların fəaliyyətinə bilavasitə rəhbərliyi həyata keçirən qurumlar tərəfindən aparılan yoxlama və təhqiqat materiallarını, digər zəruri məlumatları və sənədləri (həmçinin müəssisə və orqanlardan müşahidə kameralarının video görüntülərini) tələb etmək;

4.1.8. həbs edilmiş şəxslərin və məhkumların hüquq və azadlıqlarının təmin edilməsi ilə əlaqədar zərurət yarandığı hallarda müvafiq buraxılışı olan Baş idarə işçiləri tərəfindən məxfi hesab edilən sənədlərlə tanış olmaq;

4.1.9. həbs edilmiş şəxslər və məhkumlar barədə müvafiq elektron məlumat bazalarından istifadə etmək;

4.1.10. cəzaları icra edən müəssisə və orqanların işçilərindən, habelə onların fəaliyyətinə bilavasitə rəhbərliyi həyata keçirən qurumların vəzifəli şəxslərindən, cəzaçəkmə müəssisələrinin və istintaq təcridxanalarının mühafizəsini, məhkumların və həbsdə saxlanılan şəxslərin müşayiətini həyata keçirən ədliyyə işçilərindən və hərbi qulluqçulardan, tibb işçilərindən, habelə məhkumlardan izahat və arayış almaq;

4.1.11. Nazirliyin müvafiq qurumları ilə birlikdə, cəzanı icra edən müəssisə və orqanların fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi işinin əlaqələndirilməsində iştirak etmək;

4.1.12. cəzaların icrası ilə bağlı məsələlərin, o cümlədən Baş idarə tərəfindən aparılmış yoxlamaların, ümumiləşdirmələrin və təhlillərin nəticələrinin cəzaları icra edən müəssisə və orqanlarda müzakirəsində iştirak etmək, təkliflər vermək;

4.1.13. cəzaları icra edən müəssisə və orqanların fəaliyyətinə ictimai nəzarətin nəticələrinin müzakirəsində iştirak etmək, aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün təkliflər vermək;

4.1.14. cəzaların icrası sahəsində yol verilən pozuntuları təhlil etmək, onların baş vermə səbəblərinin aradan qaldırılması üçün təkliflər vermək;

4.1.15. cəzaları icra edən müəssisə və orqanlarda məhkumların tibbi təminatının vəziyyətini öyrənmək, bu sahədə təkliflər vermək, zərurət yarandıqda araşdırma aparmaq, habelə bu işə mütəxəssislər cəlb etmək;

4.1.16. cəzaları icra edən müəssisə və orqanların fəaliyyətinin təkmilləşdirilməsinə, cəzaların icrası işinin səmərəliliyinin artırılmasına dair təkliflər hazırlamaq;

4.1.17. cəzaları icra edən müəssisə və orqanların maddi-texniki bazasının möhkəmləndirilməsi üçün təkliflər vermək;

4.1.18. cəzaları icra edən müəssisə və orqanların işçilərinin peşə hazırlığının artırılması işinin təşkili, onların tədris kurslarına və treninqlərə cəlb olunması barədə təkliflər vermək;

4.1.19. qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

4.1.20. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən olunmuş qaydada öz fəaliyyətinə cəlb etmək;

4.1.21. Baş idarənin fəaliyyət istiqamətlərinə uyğun məsələlər üzrə rəylər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, təkliflər vermək;

4.1.22. Baş idarənin fəaliyyət istiqamətlərinə uyğun olaraq həyata keçirilən işin təkmilləşdirilməsinə dair təkliflər vermək;

4.1.23. Baş idarənin səlahiyyətlərinə aid məsələlərdə başqa dövlət orqanlarında Nazirliyi təmsil etmək;

4.1.24. vəzifələrinin icrası ilə əlaqədar digər hüquqları həyata keçirmək.

## 5. Baş idarənin fəaliyyətinin təşkili

5.1. Baş idarənin strukturu və ştat vahidlərinin sayı Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən təsdiq olunur.

5.2. Baş idarənin strukturuna Monitorinq və araşdırmalar idarəsi, Analitik-təhlil şöbəsi və qruplar (Penitensiar xidmət üzrə və Probasiya xidməti üzrə) daxildir.

5.3. Baş idarəyə Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən rəis rəhbərlik edir. Rəis Baş idarəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Baş idarənin rəisinin Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavinləri vardır. Baş idarənin rəis müavinləri onlara həvalə olunmuş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.5. Baş idarənin rəis müavinləri və işçiləri öz funksiyalarını bu Əsasnaməyə uyğun olaraq vəzifə və iş bölgüsünə əsasən yerinə yetirirlər.

5.6. Baş idarənin işi fəaliyyət istiqamətləri üzrə, habelə Nazirliyin iş planı əsasında həyata keçirilir.

5.7. Baş idarədə işin təşkili və vəziyyəti, Nazirliyin iş planında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi, qarşıda duran vəzifələrin həyata keçirilməsi ilə əlaqədar məsələlər mütəmadi olaraq Baş idarə rəisinin yanında keçirilən iclaslarda müzakirə edilir.

**5.8. Baş idarənin rəisi:**

5.8.1. Baş idarənin işini təşkil edir və onun fəaliyyətinə rəhbərliyi həyata keçirir;

5.8.2. Baş idarənin işçiləri arasında vəzifə və iş bölgüsü aparır;

5.8.3. Baş idarənin işçilərinin üzərinə düşən vəzifələrin yerinə yetirilməsinə, icra və əmək intizamına nəzarət edir;

5.8.4. Baş idarənin müvafiq hesabatlarını təsdiq edir;

5.8.5. Baş idarənin fəaliyyətini Nazirliyin strukturuna daxil olan qurumlarla əlaqələndirir;

5.8.6. Baş idarənin fəaliyyəti ilə bağlı məsələlərin Nazirliyin kollegiyasının müzakirəsinə çıxarılması üçün təşəbbüs göstərir, bu məsələlərin kollegiyanın müzakirəsinə hazırlanmasını təmin edir;

5.8.7. Nazirliyin iş planında və kollegiyasının qərarlarında, Nazirlik üzrə əmr və sərəncamlarda nəzərdə tutulmuş aidiyyəti tədbirlərin yerinə yetirilməsini təmin edir;

5.8.8. Baş idarəyə yeni qəbul edilmiş işçiləri təcrübəli əməkdaşlara təhkim edir və onların işinə bilavasitə nəzarət edir;

5.8.9. zəruri hallarda xüsusi əhəmiyyətli, böyük həcmli və mürəkkəb sənədlərin icrasını bir neçə işçiyə tapşırır və ya bir işçinin icraatından digər işçinin icraatına verir;

5.8.10. Baş idarədə işçilərin vəzifəyə təyin və vəzifədən azad edilməsi, həvəsləndirilməsi, onlara xüsusi rütbə və ixtisas dərəcələrinin verilməsi, intizam tənbeh tədbirlərinin tətbiq olunması, habelə işçilərin vəzifədən kənarlaşdırılması ilə bağlı Nazirliyin rəhbərliyinə əsaslandırılmış təkliflər verir;

5.8.11. səlahiyyəti daxilində Baş idarənin işçilərinə icrası məcburi olan sərəncam və digər yazılı və şifahi göstərişlər verir, onların icrasını təşkil edir və icrasına nəzarəti həyata keçirir;

5.8.12. Baş idarənin fəaliyyətinin təkmilləşdirilməsi sahəsində tədbirlər görür, bu barədə Nazirliyin rəhbərliyinə təkliflər verir;

5.8.13. səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini müavinlərinə tapşırır;

5.8.14. vətəndaşları qəbul edir;

5.8.15. səlahiyyətləri daxilində digər məsələləri həll edir;

5.8.16. Baş idarənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Nazirliyin strukturuna daxil olan qurumlardan zəruri məlumat və sənədləri alır;

5.8.17. Baş idarənin kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təşkil edir;

5.8.18. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.8.19. xidməti fəaliyyətlə əlaqədar Nazirliyin rəhbərliyinin tapşırıqlarını yerinə yetirir.

**5.9. Baş idarənin rəis müavini:**

5.9.1. Nazirliyin kollegiyasının qərarlarında, Nazirlik üzrə əmr və sərəncamlarda, habelə iş planında nəzərdə tutulmuş aidiyyəti tədbirlərin yerinə yetirilməsini səlahiyyətləri daxilində təmin edir;

5.9.2. Baş idarənin fəaliyyəti ilə bağlı məsələlərin Nazirliyin kollegiyasının müzakirəsinə çıxarılması barədə Baş idarənin rəisinə təklif verir, onları Nazirliyin kollegiyasının müzakirəsinə hazırlayır;

5.9.3. Baş idarənin müvafiq hesabatlarını hazırlayır və Baş idarənin rəisinə təqdim edir;

5.9.4. müəyyən müddətə azadlıqdan məhrum etmə, ömürlük azadlıqdan məhrum etmə və azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaların icrasına nəzarəti təşkil edir;

5.9.5. əfv və amnistiya aktlarının vaxtında və düzgün icra olunmasına nəzarəti təşkil edir;

5.9.6. hüquqi maarifləndirmə işində iştirak edir;

5.9.7. Azərbaycan Respublikasının cəzaların icrası sahəsində beynəlxalq

öhdəliklərindən irəli gələn vəzifələrini, üzv olduğu beynəlxalq, digər təşkilatların cəzaların icrası məsələlərinə dair tövsiyələrini təhlil edir və müvafiq təkliflər hazırlayır;

5.9.8. Baş idarədə kargüzarlıq işini təmin edir;

5.9.9. Baş idarənin işçilərinin icraatında olan sənədlərin düzgün və vaxtında icra olunmasını təmin edir;

5.9.10. Baş idarənin işçilərini cəlb etməklə ümumiləşdirmələr aparır və fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər hazırlayır;

5.9.11. vətəndaşları və penitensiar müəssisələrdə saxlanılan şəxsləri qəbul edir;

5.9.12. ona tapşırılmış sahədə işin düzgün təşkil və icra edilməsini təmin edir;

5.9.13. peşə hazırlığının yüksəldilməsi məqsədilə qanunvericiliyi daim öyrənir, işgüzar və peşə keyfiyyətlərinin yüksəldilməsinə çalışır;

5.9.14. bu əsasnamə ilə müəyyən edilmiş səlahiyyətləri daxilində digər məsələləri həll edir, xidməti fəaliyyətlə bağlı Nazirliyin və Baş idarənin rəhbərliyinin tapşırıqlarını icra edir.

**5.10. Baş idarənin rəis müavini - Monitorinq və araşdırmalar idarəsinin rəisi:**

5.10.1. idarənin işini təşkil edir və fəaliyyətinə rəhbərliyi həyata keçirir;

5.10.2. idarədə işçilərin fəaliyyətini istiqamətləndirir, onlara həvalə edilən vəzifələrin yerinə yetirilməsini təmin edir;

5.10.3. idarənin işçiləri arasında iş bölgüsünü aparır;

5.10.4. idarənin fəaliyyətini Baş idarənin şöbəsi və Nazirliyin strukturuna daxil olan qurumlarla əlaqələndirir;

5.10.5. Nazirliyin kollegiyasının qərarlarında, Nazirlik üzrə əmr və sərəncamlarda, habelə iş planında nəzərdə tutulmuş aidiyyəti tədbirlərin yerinə yetirilməsini səlahiyyətləri daxilində təmin edir;

5.10.6. idarənin fəaliyyəti ilə bağlı məsələlərin Nazirliyin kollegiyasının müzakirəsinə çıxarılması barədə Baş idarənin rəisinə təklif verir, onları Nazirliyin kollegiyasının müzakirəsinə hazırlayır;

5.10.7. idarəyə yeni təyin olunmuş işçiləri təcrübəli işçilərə təhkim edir və onların işinə bilavasitə nəzarət edir;

5.10.8. idarədə işçilərin həvəsləndirilməsi, onlara xüsusi rütbələrin verilməsi, intizam tənbeh tədbirlərinin tətbiq olunması, habelə işçilərin vəzifədən kənarlaşdırılması ilə bağlı Baş idarənin rəisinə əsaslandırılmış təkliflər verir;

5.10.9. idarənin fəaliyyətinin təkmilləşdirilməsi sahəsində tədbirlər görür, bu barədə Baş idarənin rəisinə təkliflər verir;

5.10.10. idarənin işçilərinin üzərinə düşən vəzifələrin yerinə yetirilməsinə, etik davranış qaydalarına, icra və əmək intizamına nəzarət edir;

5.10.11. müəyyən müddətə azadlıqdan məhrumetmə, ömürlük azadlıqdan məhrumetmə və azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların icrasına nəzarəti təşkil edir;

5.10.12. hüquqi maarifləndirmə işində iştirak edir;

5.10.13. idarənin işçilərinin icraatında olan sənədlərin düzgün və vaxtında icra olunmasını təmin edir;

5.10.14. vətəndaşları və penitensiar müəssisələrdə saxlanılan şəxsləri qəbul edir;

5.10.15. ona tapşırılmış sahədə işin düzgün təşkil və icra edilməsini təmin edir;

5.10.16. peşə hazırlığının yüksəldilməsi məqsədilə qanunvericiliyi daim öyrənir, işgüzar və peşə keyfiyyətlərinin yüksəldilməsinə çalışır;

5.10.17. bu Əsasnamə ilə müəyyən edilmiş səlahiyyətləri daxilində (o cümlədən

rəis müavininə aid) digər məsələləri həll edir, xidməti fəaliyyətlə bağlı Nazirliyin və Baş idarənin rəhbərliyinin tapşırıqlarını icra edir.

## 6. Baş idarənin strukturuna daxil olan idarə, şöbə və qrupların vəzifələri

**6.1. Monitorinq və araşdırmalar idarəsinin vəzifələri aşağıdakılardır:**

6.1.1. cəzaları icra edən müəssisə və orqanlarda səlahiyyətlərinə aid məsələlər üzrə yoxlamalar aparmaq, qanun pozuntuları aşkar edildikdə, tədbirlər görülməsi üçün Nazirliyin rəhbərliyinə təkliflər vermək;

6.1.2. fəaliyyət istiqamətləri üzrə cəzaları icra edən müəssisə və orqanlarda nöqsanları və neqativ halları doğuran səbəblərin aradan qaldırılması məqsədilə xidməti yoxlama, təftiş və monitorinqlər aparmaq, habelə bu məqsədlə müxtəlif monitorinq qrupları yaratmaq;

6.1.3. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən olunmuş qaydada öz fəaliyyətinə cəlb etmək;

6.1.4. cəzaları icra edən müəssisə və orqanlarda korrupsiya risklərinin, hüquqpozmaların və buna şərait yaradan halların müəyyən edilməsi, təhlili və qarşısının alınması üzrə tədbirlər görmək və müvafiq təkliflər vermək;

6.1.5. dövlət orqanlarına, dövlət və qeyri-dövlət təşkilatlarına, Nazirliyin strukturuna daxil olan qurumlara müraciət etmək, onlara sorğular vermək və məlumatlar almaq;

6.1.6. vəzifələrini yerinə yetirərkən, əvvəlcədən xəbərdarlıq etmədən, maneəsiz cəzaları icra edən müəssisə və orqanlara daxil olmaq, həbs edilmiş şəxslər və məhkumlarla görüşüb təkbətək söhbət etmək və saxlanılmaları ilə bağlı sənədlərlə tanış olmaq;

6.1.7. zərurət yarandıqda araşdırılan məsələlər ilə bağlı cəzaları icra edən müəssisə və orqanlar, o cümlədən onların fəaliyyətinə bilavasitə rəhbərliyi həyata keçirən qurumlar tərəfindən aparılan yoxlama və təhqiqat materiallarını, digər zəruri məlumatları və sənədləri (həmçinin müəssisə və orqanlardan müşahidə kameralarının video görüntülərini) tələb etmək;

6.1.8. həbs edilmiş şəxslərin və məhkumların hüquq və azadlıqlarının təmin edilməsi ilə əlaqədar zərurət yarandığı hallarda müvafiq buraxılışı olan işçilər tərəfindən məxfi hesab edilən sənədlərlə tanış olmaq;

6.1.9. həbs edilmiş şəxslər və məhkumlar barədə müvafiq elektron məlumat bazalarından istifadə etmək;

6.1.10. cəzaları icra edən müəssisə və orqanların işçilərindən, habelə onların fəaliyyətinə bilavasitə rəhbərliyi həyata keçirən qurumların vəzifəli şəxslərindən, cəzaçəkmə müəssisələrinin və istintaq təcridxanalarının mühafizəsini, məhkumların və həbsdə saxlanılan şəxslərin müşayiətini həyata keçirən ədliyyə işçilərindən və hərbi qulluqçulardan, tibb işçilərindən, habelə məhkumlardan izahat və arayış almaq;

6.1.11. Nazirliyin müvafiq qurumları ilə birlikdə, cəzanı icra edən müəssisə və orqanların fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi işinin əlaqələndirilməsində iştirak etmək;

6.1.12. cəzaların icrası ilə bağlı məsələlərin, o cümlədən Baş idarə tərəfindən aparılmış yoxlamaların, ümumiləşdirmələrin və təhlillərin nəticələrinin cəzaları icra edən müəssisə və orqanlarda müzakirəsində iştirak etmək, təkliflər vermək;

6.1.13. cəzaları icra edən müəssisə və orqanların fəaliyyətinə ictimai nəzarətin nəticələrinin müzakirəsində iştirak etmək, aşkar edilmiş nöqsanların aradan

qaldırılması üçün təkliflər vermək;

6.1.14. cəzaların icrası sahəsində yol verilən pozuntuları təhlil etmək, onların baş vermə səbəblərinin aradan qaldırılması üçün təkliflər vermək;

6.1.15. cəzaları icra edən müəssisə və orqanlarda məhkumların tibbi təminatının vəziyyətini öyrənmək, bu sahədə təkliflər vermək, zərurət yarandıqda araşdırma aparmaq, habelə bu işə mütəxəssislər cəlb etmək;

6.1.16. cəzaları icra edən müəssisə və orqanların fəaliyyətinin təkmilləşdirilməsinə, cəzaların icrası işinin səmərəliliyinin artırılmasına dair təkliflər hazırlamaq;

6.1.17. cəzaları icra edən müəssisə və orqanların maddi-texniki bazasının möhkəmləndirilməsi üçün təkliflər vermək;

6.1.18. cəzaları icra edən müəssisə və orqanların işçilərinin peşə hazırlığının artırılması işinin təşkili, onların tədris kurslarına və treninqlərə cəlb olunması barədə təkliflər vermək;

6.1.19. öz səlahiyyətlərinə aid məsələlərlə bağlı qeyri-hökumət təşkilatları, beynəlxalq qurumlar, xarici dövlətlərin müvafiq dövlət orqanları ilə əməkdaşlıq etmək;

6.1.20. xidməti fəaliyyətlə əlaqədar Baş idarənin rəhbərliyinin tapşırıqlarını yerinə yetirmək.

**6.2. Analitik-təhlil şöbəsinin vəzifələri aşağıdakılardır:**

6.2.1. Baş idarənin statistik və digər hesabatların hazırlanmasını təmin etmək;

6.2.2. Nazirliyin kollegiyasının qərarlarında, Nazirlik üzrə əmr və sərəncamlarda, habelə iş planında nəzərdə tutulmuş aidiyyəti tədbirlərin yerinə yetirilməsini səlahiyyətləri daxilində təmin etmək;

6.2.3. Baş idarənin fəaliyyət istiqamətlərinə dair məsələlər üzrə rəylər, analitik materiallar və müvafiq təkliflər hazırlamaq, təhlillər və ümumiləşdirmələr aparmaq, müsbət təcrübənin yayılması üçün təkliflər vermək;

6.2.4. xidməti yoxlamaların, təftişlərin və monitorinqlərin aparılmasında iştirak etmək, onların nəticələrinə dair arayışlar tərtib etmək və təkliflər vermək;

6.2.5. vəzifələrini yerinə yetirərkən, əvvəlcədən xəbərdarlıq etmədən, maneəsiz cəzaları icra edən müəssisə və orqanlara daxil olmaq, həbs edilmiş şəxslər və məhkumlarla görüşüb təkbətək söhbət etmək və saxlanılmaları ilə bağlı sənədlərlə tanış olmaq;

6.2.6. Baş idarənin fəaliyyət istiqamətləri üzrə, habelə cəzaların icrası sahəsinə aid olan qanunvericilik aktlarının layihələrinə dair rəylər tərtib etmək, müvafiq normativ hüquqi aktların layihələrini hazırlamaq, cəzaların icrasını, habelə cəzaların icrasına nəzarəti tənzimləyən normativ hüquqi aktların yeni qəbul olunmuş qanunvericiliyə uyğunlaşdırılması barədə təkliflər vermək;

6.2.7. məhkumlar və təqsirləndirilən şəxslər haqqında statistik məlumatları toplamaq, ümumiləşdirmək və təhlil etmək;

6.2.8. həbs edilmiş şəxslər və məhkumlar barədə müvafiq elektron məlumat sistemlərindən istifadə etmək;

6.2.9. cəzaları icra edən müəssisə və orqanlarda, istintaq təcridxanalarında baş vermiş hadisələrlə bağlı xüsusi məlumatları ümumiləşdirmək və təhlil etmək;

6.2.10. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin icrası ilə əlaqədar cəzaların icrası məsələləri ilə bağlı beynəlxalq təşkilatlara təqdim olunan dövri hesabatların hazırlanmasında iştirak etmək;

6.2.11. Baş idarənin fəaliyyət istiqamətləri üzrə, habelə cəzaların icrası sahəsində

mütərəqqi beynəlxalq təcrübəni öyrənmək, onun tətbiqi ilə bağlı müvafiq təkliflər vermək;

6.2.12. xidməti fəaliyyətlə əlaqədar Baş idarənin rəhbərliyinin tapşırıqlarını yerinə yetirmək.

**6.3. Monitorinq və araşdırmalar idarəsinin Qrupunun (Penitensiar xidmət üzrə) vəzifələri aşağıdakılardır:**

6.3.1. Cəzaları icra edən penitensiar müəssisələrdə nöqsanları və neqativ halları doğuran səbəblərin aradan qaldırılması məqsədi ilə xidməti yoxlama, təftiş və monitorinqlər aparmaq;

6.3.2. Ömürlük azadlıqdan məhrum etmə və müəyyən müddətə azadlıqdan məhrum etmə ilə bağlı olan cəzaların icrası sahəsində yol verilən pozuntuları təhlil etmək, onların baş vermə səbəblərinin aradan qaldırılması üçün təkliflər vermək;

6.3.3. Penitensiar müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsinə və azadlıqdan məhrum etmə ilə bağlı olan cəzaların icrası işinin səmərəliliyinin artırılmasına dair təkliflər hazırlamaq;

6.3.4. Xidməti fəaliyyətlə əlaqədar Baş idarənin və tərkibinə daxil olduğu idarənin rəhbərliyinin tapşırıqlarını yerinə yetirmək.

**6.4. Monitorinq və araşdırmalar idarəsinin Qrupunun (Probasiya xidməti üzrə) vəzifələri aşağıdakılardır:**

6.4.1. Azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaları icra edən orqanlarda nöqsanları və neqativ halları doğuran səbəblərin aradan qaldırılması məqsədi ilə xidməti yoxlama, təftiş və monitorinqlər aparmaq;

6.4.2. Probasiya sahəsində cəzaların icrası zamanı yol verilən pozuntuları təhlil etmək, onların baş vermə səbəblərinin aradan qaldırılması üçün təkliflər vermək;

6.4.3. Azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaları icra edən orqanların işinin təkmilləşdirilməsi və səmərəliliyinin artırılmasına dair təkliflər hazırlamaq;

6.4.4. Xidməti fəaliyyətlə əlaqədar Baş idarənin və tərkibinə daxil olduğu idarənin rəhbərliyinin tapşırıqlarını yerinə yetirmək.